UOT 330.341.1

*Teyyub Qəni oğlu ƏLİYEV*
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti, i.e.n.,*

*Nərminə Həmid qızı ABBASOVA*
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti*

# İQTİSADİ POTENSİAL VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

*Xülasə*

**Tədqiqatın məqsədi-** müəssisənin iqtisadi potensialının məzmununun, strukturunun və ona təsir edən amillərin müəyyən edilməsidir.

**Tədqiqatın metodologiyası-** sistemli yanaşma, müqayisəli təhlil metodları.

**Tədqiqatın nəticələri-**müəssisənin iqtisadi potensialının, onun strukturunun obyektiv qiymətləndirilməsi, iqtisadi potensialından istifadənin yaxşılaşdırılması üçün müvafiq tövsiyələr verilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** -tədqiqatın nəticələri və irəli sürülən tövsiyələr müəssisənin iqtisadi potensialının obyektiv qiymətləndirilməsində, iqtisadi potensialdan səmərəli istifadə üçün tədbirlərin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** -müəssisənin iqtisadi potensialının planlaşdırılması prosesinin mərhələlər üzrə aparılmasının zəruriliyi əsaslandırılır, "müəssisənin iqtisadi potensialı" anlayışının məzmununu dəqiq ifadə edən yeni tərifi verilir.

***Açar sözlər: müəssisə, iqtisadi potensial, yanaşmalar, struktur, amillər.***

## *Giriş*

Bütün səviyyələrdə iqtisadi proseslərin idarə olunmasının səmərəliliyini təmin etməyə imkan verən əsas problemlərdən biri, digər amillərlə yanaşı, müəssisənin iqtisadi potensialının düzgün müəyyənləşdirilməsi, onun reallaşdırılması və inkişafı üçün ən uyğun istiqamətlərin hazırlanmasıdır. Müəssisənin iqtisadi potensialı və bununla əlaqədar idarəetmə qərarları barədə etibarlı və vaxtında əldə edilən məlumatlar, bazar iqtisadiyyatına əsaslanan müasir sistemdə, mövcud resurslardan istifadəni optimallaşdırmağa imkan verir ki, bu da indiki şəraitdə xüsusilə vacibdir. Bu problemin həllinin aktuallığı investisiyalar, borc vermə, biznes layihələrinin həyata keçirilməsi, təchizatçılar və alıcılarla əməkdaşlıq formalarının seçimi və dizaynı, eləcə də, sənaye siyasəti sahəsində idarəetmə qərarlarının verilməsi üçün müəssisənin iqtisadi potensialı barədə məlumatların həlledici rolu ilə bağlıdır.

Hal-hazırda iqtisadi qərar qəbul edən subyektlərin praktik olaraq hamısı: mülkiyyətçilər, investorlar, podratçılar, müəssisənin menecerləri, işçiləri və dövlət qurumları, müəssisənin iqtisadi potensialını inkişaf etdirmək üçün tədbirlərin səmərəli müəyyənləşdirilməsində və inkişafında maraqlıdırlar. Bununla yanaşı, qeyd edilən subyektlər müəssisənin iqtisadi potensialının müəyyənləşdirilməsinin məzmunu və proseduru, tətbiqi və inkişafının səmərəlilik meyarları, eləcə də onun idarə edilməsi ilə bağlı fərqli və əksər hallarda bir-birini istisna edən yanaşmalara malikdirlər ki, bu da problemin həllini əhəmiyyətli dərəcədə çətinləşdirir.

Müəssisənin iqtisadi potensialının öyrənilməsi ilə əlaqədar mövzularda çox sayda nəşrlərin olmasına baxmayaraq, bu günə qədər “müəssisənin iqtisadi potensialı” kateqoriyasına, onun hesablanmasına, xarakterizə edən göstəricilərinin qiymətləndirilməsinə dair hamının qəbul etdiyi məqbul nəzəri və metodoloji yanaşmalar formalaşmamışdır. Qeyd etmək lazımdır ki, müasir elmi və metodoloji ədəbiyyatda müəssisənin iqtisadi potensialının formalaşmasına və idarə edilməsinə dair yanaşmalar sırf nəzəri xarakter daşıyır, səmərəli idarəetmə qərarları qəbul etmək üçün praktik əhəmiyyət daşımır.

Yuxarıda qeyd edilənlər müəssisənin iqtisadi potensialının öyrənilməsinə nəzəri və metodoloji

yanaşmaların tədqiqinə, onun tətbiqi və inkişafı üçün innovativ idarəetmə qərarlarının əsaslandırılmasına obyektiv tələbatın olduğunu göstərir. Bu zaman innovasiyalarla müəssisənin iqtisadi potensialının dinamikası arasındakı əlaqənin təhlilinə xüsusi diqqət yetirilməlidir, çünki bu əlaqənin yalnız keyfiyyətcə öyrənilməsi ən uyğun innovasiyaların seçilməsinə və onların səmərəli tətbiqi prosedurunun hazırlanmasına imkan yarada bilər.

Beləliklə, müəssisənin iqtisadi potensialının müəyyənləşdirilməsi, həyata keçirilməsi və inkişafı üçün ən məqsədəuyğun istiqamətlərin hazırlanması bu gün hər bir müəssisənin qarşısında duran vacib vəzifədir.

**Müəssisənin iqtisadi potensialı**

Müəssisənin təsərrüfat-istehsal prosesinin təşkili və idarə edilməsi nöqteyi-nəzərindən iqtisadi potensiala müxtəlif aspektlərdən yanaşmaq olar. İqtisadi ədəbiyyatlarda müəssisənin iqtisadi potensialının tərifi və qiymətləndirilməsinin əsasında duran üç yanaşmaya rast gəlinir: resurs, məhsuldar və ehtiyat [1;2;4].

Resurs yanaşmasına uyğun olaraq iqtisadi potensial məhsul istehsalında istifadə olunan resursların, vasitələrin və istehsal obyektlərinin məcmusu kimi qəbul edilir. Bu halda iqtisadi potensialın yalnız resurs tərkibi təhlil edilir. Məlumdur ki, resurslar hər hansı bir müəssisənin iqtisadi potensialının inkişafı üçün əsasdır.

Resurs yanaşmasında iki istiqamət fərqləndirilir: dəyişdirici; adaptiv (uyğunlaşma).

Dəyişdirici istiqamətin nümayəndələri müəssisənin istehsal sisteminin dəyişmə imkanlarına, yəni sərəncamındakı resursları dəyişdirərək müəyyən bir nəticə (bir qayda olaraq, iqtisadi mənfəət nəticə olaraq nəzərə alınır) əldə etmək qabiliyyətinə xüsusi diqqət yetirirlər. Eyni zamanda, iqtisadi potensial məhsul istehsal etmək, iş yerinə yetirmək, xidmətlər göstərmək və ya hər hansı bir funksiyanı yerinə yetirmək bacarığı kimi qəbul olunur. Dəyişdirici istiqamət çərçivəsində iqtisadi potensialın əlavə təfsiri fərqləndirilir ki, bunun da fərqli xüsusiyyətləri mövcud resursların cəminin onların aritmetik cəmi kimi qəbul edilməsidir. Bu istiqamətin tərəfdarları iqtisadi potensialın tədqiqi zamanı diqqəti ilk növbədə maddi-əşya resurslarına yönəldirlər.

Resurs yanaşmasının tərəfdarları resursların üç növünü fərqləndirirlər: təsərrüfat dövriyyəsinə cəlb edilən təbii resurslar (söhbət mücərrəd deyil, real potensialdan gedir); əsas istehsal fondları, dövriyyə fondları, torpaq resursları; əmək resursları. Onlar iqtisadi potensialı (onların qarşılıqlı əlaqələri və istehsal prosesindəki iştirakı nəzərə alınmadan), onun dəyişdirici fəaliyyətinin səmərəliliyini müəyyənləşdirən istehsal sisteminin resurslarının məcmusu kimi müəyyən edirlər. Bu istiqamət, onun tərəfdarlarına görə, iqtisadi potensialın həcmi nəzərə alınmadan, resurs parametrlərinin dinamikasının və onlardan istifadənin nəticələrinin təhlili əsasında, onun zaman üzrə dəyişmə meyli haqqında kifayət qədər etibarlı məlumatlar almağa imkan verir. Bu yanaşmaya nümunə kimi, istehsal sisteminin əsas fondlarının, əmək ehtiyatlarının, torpaq resurslarının fiziki həcmində baş verən artımın, onun iqtisadi potensialının artması ilə eyniləşdirilməsini göstərmək olar.

Qeyd etmək lazımdır ki, bu yanaşmanın nümayəndələri dəyişmə prosesində resursların bir-birini tamamladığını, yəni müəyyən bir nəticənin hər bir resurs tərəfindən ayrı-ayrılıqda deyil, onların bütövlüyü ilə əldə olunduğunu nəzərə almırlar. Nəticədə, istehsal texnologiyası, dəyişmə prosesində resursları birləşdirən vasitə kimi funksiyaların (ilk növbədə idarəetmə) yerinə yetirilməsi metodları nəzərə alınmır ki, bu da istehsal sisteminə xas olan imkanların əhəmiyyətli bir hissəsini təhlildən kənarda qoyur.

Dəyişdirici istiqamət çərçivəsində iqtisadi potensialın inteqrativ təfsiri də fərqləndirilir. Bu təfsirin fərqi ondadır ki, resurslar qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə nəzərə alınır. Eyni zamanda, idarəetmə funksiyalarının həyata keçirilməsi metodları da daxil olmaqla, resurslarla yanaşı onların çevrilmə texnologiyası da nəzərə alınır və bu, nəzərdən keçirilən imkanlar dairəsini xeyli genişləndirir. Texnologiya dolayısı ilə istehsal funksiyasının qurulması yolu ilə təhlilə daxil edilir. Potensialın bütün elementləri istehsal sisteminin ümumi məqsədinə xidmət edir; mövcud resursların inteqrasiyası iqtisadi potensialın həcminə təsir göstərən əhəmiyyətli amil kimi qəbul edilir. Bu istiqamətin nümayəndələri potensialı qarşılıqlı əlaqə və qarşılıqlı təsir etmə qabiliyyətinə

malik sistem resurslarının müəyyən miqdar məhsul istehsal etmək qabiliyyəti kimi qəbul edirlər.

Qeyd edilən istiqamətin tərəfdarları adaptiv istiqamət nümayəndələrinə nisbətən daha çox resurs növü ayırmasına baxmayaraq, iqtisadi potensial yenə də dörd əsas növün cəmi kimi müəyyən edilir: əmək (kadr komponenti); torpaq (kapital və ya təbii ehtiyatlar); kapital (maddi-texniki komponent); təşkilati və məlumatverici komponent.

Bu istiqamətin bəzi nümayəndələri məlumat komponentinə və insan amilinə vurğu edərək, resursların aşağıdakı təsnifatını verirlər: işçi heyəti; maddi-texniki; maliyyə; məlumat; zaman resursları. Bu zaman, istifadə edilən metodların, onların tətbiqi texnologiyasının, idarəetmə fəaliyyətinin təşkili səviyyəsinin əhəmiyyətini və səviyyəsini qeyd edirlər. Lakin, fikrimizcə, bu yanaşmanın və ümumiyyətlə resurs yanaşmasının mənfi cəhəti ondan ibarətdir ki, onlar tələb, rəqabət, dövlət tənzimləmə sistemi və xarici iqtisadi mühitin digər amilləri ilə şərtləndirilən imkanları iqtisadi potensial strukturunda nəzərə almırlar.

İqtisadi potensial kateqoriyasını müəyyənləşdirmək üçün resurs yanaşmasının ikinci-adaptiv (uyğunlaşma) istiqamətini - xüsusiyyətlərini nəzərdən keçirək.

Dəyişdirici istiqamətin tərəfdarlarından fərqli olaraq, adaptiv (uyğunlaşma) istiqamətinin nümayəndələri əsas diqqəti istehsal sisteminin potensialının uyğunlaşma imkanlarına, yəni, birincisi, dəyişən ətraf mühit şərtlərinə uyğunlaşma imkanlarına, ikincisi, bu uyğunlaşma vasitələrinin – innovasiyaların istehsalına yönəldilər. Adaptiv istiqamətin tərəfdarları iqtisadi potensialı istehsal sisteminin inkişafı, dəyişən ətraf mühit şəraitinə uyğunlaşması, habelə yenilik üçün vasitələrin yaradılması və tətbiqi üçün lazım olan imkanlar kimi müəyyənləşdirirlər.

Qeyd etmək lazımdır ki, bu istiqamətin həm üstünlükləri, həm də mənfi cəhətləri vardır. Üstünlüklər olaraq:

- bu istiqamət çərçivəsində istehsal sisteminin dəyişən xarici şəraitə uyğunlaşdırma imkanlarının və vasitələrinin öyrənilməsinə diqqət yetirilməsini;
- istehsal sisteminin imkanlarının ən vacib mənbələrinin və resursları birləşdirmə vasitələrinin texnologiyalardan, biliklərdən, məlumatlardan, idarəetmə metodlarından ibarət olmasının qəbul edilməsini;
- iqtisadi potensialın aktuallaşdırma səviyyəsini təyin edən ən vacib amillər kimi işçilərin idarə edilməsinin və motivasiyasının seçilməsini göstərmək olar.

Mənfi cəhət kimi, həm resurs qiymətləndirmə sahəsində, həm də istehsal sisteminin hədəflərinə çatma səviyyəsinə təsiri sahəsində kəmiyyət təhlili aparatının inkişaf etməməsini qeyd etmək olar.

Resurs yanaşması ilə yanaşı, iqtisadi potensialı müəssisənin sosial ehtiyacları ödəmək üçün mövcud mənbələri mənimsəmək, təkrar emal etmək bacarığı kimi əks etdirən məhsuldar yanaşma da fərqləndirilir. Müəssisənin fəaliyyətinin nəticəsi hər cür potensialın olması və onun bacarıqlı istifadəsi ilə müəyyən edilir.

Qeyd etmək lazımdır ki, sosial-iqtisadi sistemin inkişaf etmə qabiliyyəti "iqtisadi potensial" anlayışı ilə müəyyən edilir. Müəssisə mövcud iqtisadi potensialını sabit vəziyyətdə saxlamağı, həm də, onu inkişaf etdirməyi bacarırsa “davamlı rəqabət” üstünlüyü qazanır. Bu vəziyyətdə təhlil müəssisənin mövcud resurslarının miqdarı, strukturu və keyfiyyəti çərçivəsində, maksimium miqdarda məhsul istehsal etməsi imkanlarının təhlilinə yönəldilir.

Müəssisənin iqtisadi potensialı, həm də təsərrüfat subyektinin istehsal-təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması üçün ehtiyatlar baxımından nəzərdən keçirilir (ehtiyat yanaşması). Ehtiyatlar, istehsal səmərəliliyinin artırılması, iqtisadi səmərəliliyin artmasına kömək edən amillərin təsirini artırmaq və digər amillərin mənfi təsirini aradan qaldırmaq üçün istifadə olunmayan imkanlardır. Bu mənada ehtiyatların müəyyənləşdirilməsi və onların səfərbər olunmasının həqiqi yollarının və müddətlərinin müəyyənləşdirilməsi müəssisə potensialının iqtisadi təhlilinin əsas vəzifələri hesab edilməlidir.

Ehtiyatlar, sistemin inkişafı üçün potensial imkanlar olaraq iqtisadi strukturlarda həmişə mövcuddur. Ancaq ehtiyatların reallaşması üçün yalnız onları tapmaq kifayət deyildir, həm də, onlardan elə istifadə yollarını müəyyənləşdirmək lazımdır ki, sistemin yüksək iqtisadi səmərəliliyinə

nail olunmasına imkan və zəmin yaratsın.

İnkişaf ehtiyatlarının axtarışı konsepsiyası kateqorik bir sıranın qurulmasını tələb edir. Xüsusilə, "iqtisadi inkişaf ehtiyatları" anlayışına əlavə olaraq "müəssisənin iqtisadi inkişafının ehtiyatları" anlayışını da nəzərdən keçirmək və onlardan istifadə mexanizmlərini yenidən yaratmaq lazımdır. Müəssisənin iqtisadi inkişaf ehtiyatlarını idarə etmə texnologiyasının metodoloji əsasını ehtiyatları imkandan reallığa çevirmək təşkil edir.

İqtisadi inkişaf ehtiyatları istehsalın əsas amillərinin: kapital, əmək, torpaq və sahibkarlıq fəaliyyətinin dinamik uyğunluğa gətirilməsi nəticəsində formalaşan istehsal səmərəliliyinin artırılması üçün imkanlardır. Uyğunluq istehsalın əsas amillərinin elə bir qarşılıqlı əlaqəsinə nail olunmasını nəzərdə tutur ki, onlar müəyyən bir dövr üçün müəssisələrin fəaliyyətinin mümkün olan ən yüksək səmərəliliyini təmin etmiş olsunlar. Təcrübədə əsas amillər arasındakı uyğunluq səviyyəsinin meyarları istehsal səmərəliliyinin artması, müəssisələrin müxtəlif resursları arasında optimal nisbətlərin qorunması və xarici mühitlə əlaqələrin uyğunlaşdırılmasıdır.

Qeyd etmək lazımdır ki, iqtisadi potensialın müəyyənləşdirilməsinə ehtiyat yanaşması bir sıra üstünlüklərə malikdir:

- mövcud ehtiyatlardan istifadənin yaxşılaşdırılması hesabına müəssisənin səmərəliliyinin artırılması üçün ehtiyatların müəyyənləşdirilməsi məqsədi ilə nəzəriyyə və uyğun metodların seçilməsinə imkan verən yanaşmanın praktiki istiqamətləndirilməsi;
- yüksək dərəcədə komplekslilik, çünki bu yanaşma çərçivəsində xarici və daxili mühit amillərinin maksimum istifadəsi ilə əlaqəli ehtiyatlar müəyyən edilir.

Eyni zamanda, bu yanaşmanın əhəmiyyətli bir çatışmazlığı var: potensialın bazası kimi ehtiyatlara diqqət potensialın kəmiyyət parametrlərini düzgün müəyyənləşdirməyə imkan vermir, çünki iqtisadi sistemdə mövcud olan resurslardan istifadə ehtiyatları, müəssisənin hədəflərinə, missiyasına və iqtisadi strategiyasına bağlı deyildir. Bu əlaqə olmadan ehtiyatların müəyyənləşdirilməsi, müəssisənin iqtisadi fəaliyyəti üçün mövcud imkanlar matrisi daxilində sonsuz bir prosesdir.

İqtisadi potensial çoxsəviyyəli və çoxölçülü tədqiqat obyektidir, yəni istehsal güclərinin müxtəlifliyinə əsaslanaraq iqtisadi potensial ölkənin potensialı, sənaye potensialı, regional potensial, müəssisə potensialı kimi müxtəlif növlərə bölünə bilər. İqtisadi lüğətlərdə iqtisadi potensial ölkə iqtisadiyyatının, müəssisələrinin, filiallarının, təsərrüfatlarının istehsal və təsərrüfat fəaliyyətini həyata keçirmək, yeni məhsullar, xidmətlər istehsal etmək, əhalinin sosial ehtiyaclarını ödəmək, istehsalın və istehlakın inkişafını təmin etmək istiqamətlərində məcmu bacarıq kimi qeyd edilir. Bununla yanaşı, iqtisadi potensiala həm müəssisənin maddi-texniki, təşkilati və iqtisadi imkanları, həm də milli iqtisadiyyat sahələrinin sənaye və kənd təsərrüfatı məhsulları, əsaslı tikinti, mal daşınması, əhaliyə müəyyən bir tarixi anda xidmət göstərmək qabiliyyəti kimi də baxmaq olar.

Müəssisənin iqtisadi potensialının və onun məzmununun müəyyənləşdirilməsinə dair yanaşmaları araşdıraraq qeyd etmək olar ki, müəssisənin iqtisadi potensialının modeli aşağıdakılarla müəyyən edilir:

- əsas istehsal və qeyri-istehsal aktivləri, qeyri-maddi aktivlər, dövriyyə fondları, tədavül fondları, işçilərin sayı daxil olmaqla müəssisədə mövcud olan resursların həcmi və keyfiyyəti ilə;
- məhsulların istehsalı prosesində menecerlərin və işçilərin müəssisədə mövcud resurslardan optimal şəkildə istifadə etmək bacarığı ilə;
- innovasiyanın inkişafı və tətbiqi yolu ilə dəyişən iqtisadi mühitdə qarşıya qoyulmuş hədəflərə çatmaq üçün müəssisənin idarəetmə səylərinin səmərəliliyi ilə.

Müəyyən bir müəssisənin iqtisadi potensialını əsas elementlər baxımından araşdırarkən onun rəqabət qabiliyyətinin səviyyəsini təhlil etmək, yəni iqtisadi potensialını, potensialının ən vacib parametrlərinin vəziyyətini hərtərəfli qiymətləndirmək lazımdır. Bu məqsədlə onun potensialının vacib elementlərini seçilmiş standartlarla (oxşar bir müəssisə, sənaye sahəsi, dünya analoqları ilə) əlaqəli şəkildə müqayisə etmək lazımdır.

Mövcud iqtisadi şərtləri və öyrənilən iqtisadi kateqoriyanın məzmununa dair mövcud yanaşmaları nəzərə alaraq, “müəssisənin iqtisadi potensialı” anlayışına aşağıdakı tərifi verə bilərik:

müəssisənin iqtisadi potensialı- mövcud olan istehsal amillərindən (əmək və təbii ehtiyatlar, əsas və dövriyyə fondları), məqsədli bazarların tutumu və müəssisənin rəqabət qabiliyyəti (istehsal və idarəetmə texnologiyaları, innovasiya, işgüzar nüfuz və s.) nəzərə alınmaqla, sahiblərin sahibkarlıq və menecerlərin idarəetmə qabiliyyətlərindən istifadə edərək müəssisənin məqsədlərinə çatma imkanları və bacarığıdır.

Fikrimizcə, iqtisadi potensialın məzmununa dair yanaşmaları ümumiləşdirərək iqtisadi potensialın əsas ortaq xüsusiyyətləri kimi aşağıdakıları göstərə bilərik:

- potensial dinamik xüsusiyyətdir və özünü yalnız istifadə prosesində büruzə verir;
- potensialdan istifadə onun artımı ilə müşayiət olunmalıdır;
- potensialdan istifadə və onun artırılması prosesləri fasiləsiz olmalı və bir-birini tamamlamalıdır;
- iqtisadi potensial - müəssisənin fəaliyyət qabiliyyətini, imkanlarını xarakterizə edən, ilk növbədə sosial-iqtisadi münasibətlərin və insanlar, müəssisələr arasındakı qarşılıqlı münasibətlərinin mahiyyəti və xüsusiyyətləri ilə əlaqəli bir kateqoriyadır;
- iqtisadi potensial müəyyən resurslar dəsti ilə xarakterizə olunur;
- resurslar mümkün qədər istehsalda iştirak etməli və ya istifadəyə hazır olmalıdır;
- iqtisadi potensiala sahə mənsubiyyəti böyük təsir göstərir (müəyyən bir sahənin şərtləri və məhdudiyyətləri);
- müəssisələrin inkişafına ehtiyac və daim dəyişən müasir şəraitə uyğunlaşma tələbi.

Qeyd etmək lazımdır ki, indiyə qədər “iqtisadi potensial” kateqoriyasının yeganə (əsas), hamı tərəfindən qəbul edilən tərifinin olmaması səbəbindən, bu kateqoriyanın struktur elementləri ilə bağlı fikir ayrılığı da mövcuddur.

Tədqiqatçıların versiyalarından birinə görə, iqtisadi potensialın strukturuna aşağıdakılar daxil edilir [3] (şəkil 1):




***Şəkli 1. İqtisadi potensialın strukturu.***

Strukturun bu variantı iqtisadi potensialı sadələşdirilmiş formada təmsil edir və bu sxemdə müəyyən edilmiş bu və ya digər elementin tam olaraq nədən məsul olduğunu göstərir: əmək potensialı + innovasiya potensialı inkişafa kömək edir, resurs potensialı iqtisadiyyata cavabdehdir və s.

Başqa bir iqtisadi ədəbiyyatda [5] iqtisadi potensialın strukturunun oxşar versiyasını təklif edirlər (şəkil 2):

Bu iki struktur haqqında ümumi nəticələri göstərək:

1) iqtisadi potensialın subpotensial növlərinin birləşməsindən ibarət olduğunu əminliklə söyləmək olar. Ancaq bu günə qədər elm adamları iqtisadi potensialın strukturuna hansı alt potensialın daxil ediləcəyi barədə yekdil bir fikir birliyinə gələ bilmirlər;

2) fikrimizcə, hər iki strukturda rasional bir şey var, bununla birlikdə birinci struktura əlavələr edilməli, ikincisi yenidən nəzərdən keçirilməlidir. Bəlkə də bu vəziyyətdə hər iki strukturu bir variantda birləşdirmək daha düzgün olardı.




***Şəkil 2. İqtisadi potensialın strukturu.***

İqtisadi potensialın tərifinə dair müxtəlif yanaşmaların olmasına baxmayaraq tədqiqatçılar müəssisənin məcmu iqtisadi potensialının fərdi resurslardan, məsələn, əmək, təşkilati, elmi – texniki, sənaye, sahibkarlıq, maliyyə potensialı və s. formalaşdığı barədə ümumi fikrə gəliblər. Bununla birlikdə, hansı elementlərin ümumi potensialı təşkil etməsi və aralarında hansı əlaqələrin olması barədə fikir ayrılığı hələ də mövcuddur.

Hər bir müəssisənin əsas prinsipi, özünün fəaliyyətinin fasiləsiz davamlılığına nail olmaqdır ki, bu da iqtisadi potensialının mövcudluğu və onun optimal artması ilə təmin edilə bilər.Nəticə olaraq, menecerlərin qarşısında iqtisadi potensialın artmasını təmin etmək kimi çətin bir vəzifə durur.

Bu baxımdan iqtisadi potensialın və ehtiyatların istifadəsinin obyektiv qiymətləndirilməsi müəssisəni səmərəli idarə etməyə imkan verə bilər. Hər bir sahibkarlıq fəaliyyətinin səmərəli təşkili, bir tərəfdən mülkiyyət potensialının artmasını, digər tərəfdən iflasın qarşısını almaq üçün maliyyə vəziyyətinin sabitliyinin təmin edilməsini tələb edir.

Beləliklə, müasir müəssisə üçün iqtisadi potensialın araşdırılması və rasional istifadəsi müəssisənin davamlı strateji inkişafının təmin edilməsində zəruri bir mərhələdir. Nəzərə almaq lazımdır ki, iqtisadi potensialı idarə etmək zərurəti, resursların mövcudluğu və istifadəsi, kapitalın mövcudluğu və istifadəsinin səmərəliliyi arasında daha dərin səbəb əlaqələrinin qurulmasını tələb edir.

Məlumdur ki, müəssisənin iqtisadi potensialı yalnız onun fəaliyyətinin yekun nəticələrinə deyil, həm də, bütünlükdə müəssisənin iqtisadi artımına və strukturunun inkişafına da təsir göstərir. Müəssisənin sərəncamında olan əmək, maddi, maliyyə mənbələrinin məcmusundan ibarət olan iqtisadi potensial bir sıra amillər və göstəricilərlə xarakterizə olunur ki, onların əsasları aşağıdakılardır: istehsal ehtiyatlarının həcmi və miqdarı; sənaye - istehsal heyətinin sayı; əsas istehsal fondlarının tərkibi; dövriyyə vəsaitlərinin və material ehtiyatlarının miqdarı; maliyyə mənbələrinin və qeyri-maddi aktivlərin mövcudluğu; patentlərin, lisenziyaların, texnologiyanın, məlumatların istifadə səviyyəsi; müəssisənin işçi heyətinin bacarığı, istehsalın bütün sahələrində və idarəetmənin bütün səviyyələrində peşəkarlıq fəaliyyəti; müəssisənin maliyyə vəziyyəti, cari ödəmə və likvidlik səviyyəsi, xarici və daxili borc, kredit qabiliyyətinin dərəcəsi; elmi, yaradıcılıq, səmərələşdirici və innovasiya fəaliyyətinin vəziyyəti, istehsalın yenilənməsi və mövcud texnologiyanın dəyişdirilməsi bacarığı; marketinq, dizayn, istehsal və maliyyə fəaliyyətinin informasiya dəstəyi, istifadə olunan məlumatın keyfiyyəti və etibarlılıq dərəcəsi. Bunları nəzərə alaraq hər bir müəssisə özünün sabit və səmərəli fəaliyyətinin təmin edilməsi üçün iqtisadi potensialını planlaşdırmalı və onu aşağıdakı əsas göstəricilərə və ya kompleks amillərə əsasən həyata keçirməlidir: iqtisadi potensialın dinamikasına; müəssisənin istehsal gücünə; daxili bazarın dinamikasına; müəssisənin maliyyə vəziyyətinə; insan kapitalına və ya əmək potensialına; müəssisənin, sənayenin və ya ölkənin nüfuzuna; istehsal resursları ilə təminatın səviyyəsinə; xarici bazara istiqamətlənməyə; innovativ və ya yaradıcı potensiala; sosial sabitliyə.

Yuxarıda təqdim olunan kompleks istehsal göstəricilərin hər biri bir neçə göstəricidən ibarətdir. Ona görə də, müəssisənin iqtisadi potensialını planlaşdırarkən, yuxarıda göstərilən amillərin hər birini qiymətləndirmək üçün ən əhəmiyyətli göstəriciləri seçmək müəyyən çətinliklər yaradır. Ona görə də, iqtisadi potensialın planlaşdırılması prosesinin bir neçə mərhələ üzrə aparılması məqsədəuyğundur.

Birinci mərhələdə müəssisənin optimal zəruri iqtisadi potensialını müəyyənləşdirməyə imkan verən strateji inkişaf istiqamətləri müəyyənləşdirilməlidir.

İkinci mərhələdə yeni idarəetmə metodlarından istifadə edərək (şaquli və ya üfüqi inteqrasiya, istehsalın şaxələndirilməsi) müəssisənin iqtisadi inkişaf imkanları müəyyənləşdirilməlidir.

Üçüncü mərhələdə məşğul olduğu sahənin (sənaye, kənd təsərrüfatı və s.) iqtisadi potensialından istifadəyə imkan yaradan sahə xüsusiyyətləri nəzərə alınmalıdır.

Dördüncü mərhələdə müəssisənin iqtisadi potensialının idarə olunması üçün metodoloji prinsiplər müəyyənləşdirilməlidir. İqtisadi potensialın idarə edilməsini səmərəli şəkildə həyata keçirmək, inkişaf imkanlarını qiymətləndirmək üçün müəssisə, fəaliyyət göstərdiyi sahənin xüsusiyyətləri ilə əlaqədar ən düzgün idarəetmə metodlarından istifadə etməlidir. İqtisadi potensialın formalaşması prosesində belə bir metodoloji baza yaradılmalıdır.

Beşinci mərhələdə iqtisadi potensialın formalaşması və inkişafı ilə bağlı qərarlar qəbul edilməlidir. Bu mərhələdə:

- müəssisənin iqtisadi potensialının proqramlaşdırılması - səmərəliliyinin artırılması üçün həm idarəetmə proseslərinin, həm də istehsal fəaliyyətinin keyfiyyəti araşdırılmalıdır. İqtisadi potensialın strukturu təhlil edilməli, onun əsas elementlərinin vəziyyəti qiymətləndirilməli və koordinasiya olunmalıdır. İnnovasiyanın tətbiqi imkanı, müəssisə rəhbərliyi və işçilərinin onlara reaksiyası qiymətləndirilməlidir. Lazımi texnologiyalar axtarılmalı və ya inkişaf etdirilməlidir;
- müəssisənin iqtisadi potensialının idarə olunması - onun planlaşdırılması həyata keçirilməli, idarəetmənin keyfiyyətini, səmərəliliyini və qənaətcilliyini artırmaq üçün kommunikasiya sistemi, zəruri idarəetmə strukturları təşkil olunmalıdır;
- müəssisənin xarici mühiti marketinq əsasında təhlil olunmalıdır: məhsul istehsalı, giriş və çıxış logistikası tənzimlənməli, yeniliklərin tətbiqinə imkan yaradılmalıdır.
- iqtisadi potensialın inkişafı proqramının həyata keçirilməsinin idarə olunması həyata keçirilməlidir - resurslar əlaqələndirilməli, investisiyalar cəlb olunmalıdır.

Qeyd edilənləri həyata keçirdikdən sonra müəssisənin missiyası və strategiyasına əsaslanaraq iqtisadi potensialı inkişaf etdirmək (artırmaq, azaltmaq və ya lazımi səviyyədə saxlamaq) üçün idarəetmə qərarları verilməlidir.

Altıncı mərhələdə müəssisənin iqtisadi potensialının idarə edilməsinin səmərəliliyi qiymətləndirilməlidir. Belə qiymətləndirmə müvafiq göstəricilər sistemindən istifadə etməklə həyata keçirilməlidir.

**Müəssisənin iqtisadi potensialına təsir edən amillər**

Müəssisənin iqtisadi potensialının formalaşmasına bir sıra amillər təsir göstərir ki, onlar xarici (ekzogen) və daxili (endogen) olaraq təsnifləşdirilə bilər.

Xarici amillərə aşağıdakılar daxildir:

- iqtisadiyyatın vəziyyəti;
- hüquqi tənzimləmə və idarəetmə (qanunvericilik, inzibati və iqtisadi metodlar);
- ictimai-siyasi amillər;
- cəmiyyətin sosial və mədəni komponentləri;
- elmi, texniki və texnoloji inkişaf səviyyəsi.

Daxili amillərə aşağıdakılar daxildir:

- texniki amil (istehsal və idarəetmənin maddi amilləri: əsas fondlar və dövriyyə fondları);
- insan amili (kadrların peşə, ixtisas, intellektual və mədəni səviyyələri).

Bundan əlavə, bütün bu amillər idarəolunan və idarəolunmaz olaraq təsnif edilə bilər.

İdarəolunmaz təsir amillərinə rəqabət mühitinin aşağıdakı təsirləri aid edilir:

- sənaye sahəsi daxilində rəqiblər;
- alıcılar;
- təchizatçılar;
- potensial yeni rəqiblər;
- müəssisə məhsulunun mümkün əvəzedicisinin istehsalçıları.

İqtisadi potensial inkişaf hədəfləri ilə birbaşa əlaqəlidir və bu səbəbdən müəssisənin potensialının inkişafının planlaşdırılması bir sıra aşağıdakı mərhələlərin daxil edilməsini əhatə edir:

- müəssisənin istehsal ehtiyatları və imkanları, bazardakı payı və ya mövqeyinin strukturunun, dinamikasının və istifadəsinin səmərəliliyinin qiymətləndirilməsi;
- əsas məhsul növlərinin, müəssisənin özünün və onun ümumi kapitalının rəqabət qabiliyyətinin səviyyəsinin müəyyənləşdirilməsi;
- müəssisədəki mövcud istehsal ehtiyatlarının və iqtisadi mənbələrin itkilərinin təhlili;
- müəssisənin potensial inkişafının əsas strategiyası və taktikasının seçilməsi;
- seçilmiş uzunmüddətli hədəflər və mövcud resurs məhdudiyyətləri nəzərə alınmaqla müəssisənin potensialının inkişafının planlaşdırılması;
- iqtisadi yüksəlişin təmin edilməsi və müəssisənin potensialının inkişafı ilə bağlı planlaşdırılmış fəaliyyətlərin həyata keçirilməsi.

İqtisadi potensialın inkişafı şəraitdən asılı olaraq vaxt keçdikcə dəyişən dinamik bir formaya malikdir, bu səbəbdən müəssisənin iqtisadi potensialının idarə olunması dəqiq müəyyən edilmiş bir vaxt çərçivəsinə malik deyildir.

Müəssisənin iqtisadi potensialının inkişaf mexanizmi aydın və üzvi şəkildə müəssisə idarəetmə sistemlərinə uyğunlaşmalı və özünün xüsusi iş prinsiplərinə, müəyyən bir quruluşa və bir sıra təsis elementlərinə sahib olan xüsusi formalaşmış idarəetmə sistemi ilə konkretləşdirilməlidir.

Mövcud ədəbiyyatlarda iqtisadi potensialın qiymətləndirilməsi üçün çox sayda fərqli variantın olmasına baxmayaraq, vahid bir əsas düstur hələ də qəbul edilməyib. İqtisadi ədəbiyyatlarda dəfələrlə qeyd olunur ki, bu kateqoriyanın səmərəli idarə edilməsi və qiymətləndirilməsinin əsasında iqtisadi potensialın strukturunun (elementlərinin) müəyyənləşdirilməsi problemi durur. Buradan belə nəticə çıxarmaq olar ki, iqtisadi potensialın elementlərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi yolu ilə bu kateqoriyanın qiymətləndirməsi üçün alqoritm verilə bilər.

Beləliklə, iqtisadi potensialın struktur elementləri vasitəsilə qiymətləndirilməsi formulunu aşağıdakı kimi ifadə etmək olar:

$$İPQ = İPQ + MPQ + RSPQ + TİPQ + ƏPQ + İPQ + İNPQ$$

Burada: İPQ - iqtisadi potensialın qiymətləndirilməsi;
İPQ - istehsal potensialının qiymətləndirilməsi;
MPQ - maliyyə potensialının qiymətləndirilməsi;
RSPQ - resurs və satış potensialının qiymətləndirilməsi;
TİPQ - təşkilati və idarəetmə potensialının qiymətləndirilməsi;
ƏPQ - əmək potensialının qiymətləndirilməsi;
İPQ - innovativ potensialın qiymətləndirilməsi;
İNPQ - informasiya potensialının qiymətləndirilməsi.

Beləliklə, iqtisadi potensialın elementlərini bilməklə və müəssisənin ümumi iqtisadi potensialını qiymətləndirməklə, bütövlükdə müəssisənin fəaliyyətinin səmərəliliyini qiymətləndirmək imkanı əldə edə bilərik.

İqtisadi potensialdan səmərəli istifadə etmək, hər bir müəssisənin yüksək nəticələr əldə etmək və eyni zamanda müştərilərin keyfiyyətli məhsullara olan ehtiyaclarını ödəmək üçün bütün mövcud mənbələrdən səmərəli istifadə etməsi üçün fürsət deməkdir.

Müəssisənin iqtisadi potensialından istifadə səviyyəsinin qiymətləndirilməsi onun fəaliyyətinin nə dərəcədə səmərəli olduğuna müəyyənlik gətirir, inkişafının meylini göstərir, idarəetməni səmərəlilik meyarı ilə təhlil etməyə və müəssisənin fəaliyyətinin səmərəliliyinin artmasının hansı əsas amillərdən asılı olduğunu müəyyənləşdirməyə imkan verir.

İqtisadi potensialı öyrənərkən riskləri qiymətləndirmək son dərəcə vacibdir, çünki bir qayda olaraq risk bu kateqoriyanın inkişafına mənfi təsir göstərir.

Azərbaycan müəssisələri üçün ən əhəmiyyətli risklər, fikrimizcə, aşağıdakılardır:
- beynəlxalq layihələri maliyyələşdirmə riskləri;
- layihənin inkişafının tamamlanmaması riski;
- istehsal riskləri;
- tətbiqetmə riskləri;
- maliyyə riskləri;
- siyasi və iqtisadi risklər.

Müasir şəraitdə istənilən müəssisə üçün qlobal problemlərdən biri də rəqabət qabiliyyətini qorumaq və daim dəyişən xarici mühitdə fəaliyyət göstərməkdir. Bu problemin prioritet səbəblərindən biri müəssisənin öz sərəncamında olan iqtisadi potensialını qiymətləndirə və inkişafını idarə edə bilməməsidir.

Müəssisənin iqtisadi potensialının təhlili hərtərəfli olmalıdır, çünki potensial bir neçə amilin (resurslar, ehtiyatlar, nəticələr, sahibkarlıq qabiliyyətləri) birləşməsi nəticəsində yaranır. Hərtərəfli təhlil iqtisadi potensialdan istifadənin səmərəliliyinin ümumiləşdirilmiş qiymətləndirilməsini mümkün edir, onun mövcudluğu və inkişafı müəssisənin rəqabət qabiliyyətini müəyyənləşdirir, idarəetmə qərarlarının səmərəli həyata keçirilməsinin qarantıdır.

Müəssisənin iqtisadi potensialı iki əsas tərkib hissəsindən ibarətdir: maddi, əmək, maliyyə və digər resursların birləşməsi kimi təqdim olunan - obyektiv; işçilərin resurslardan maksimum səmərəliliklə istifadə etmək bacarığı olan- subyektiv. Bunlar, iqtisadi potensialın ölçülməsində müəyyən metodoloji problemlər yaradır.

Bazar iqtisadiyyatı şəraitində müəyyən bir müəssisənin iqtisadi potensialı mütləq bir kəmiyyət deyil: o, rəqabət mühitinin vəziyyətindən əhəmiyyətli dərəcədə asılıdır.

Hal-hazıra kimi, iqtisadi ədəbiyyatlarda müəssisələrin iqtisadi potensialının müəyyənləşdirilməsinə və qiymətləndirilməsinə sistemli yanaşma məsələləri kifayət qədər işlənməmişdir. Bu həm bu problemin nəzəri mürəkkəbliyi ilə, həm də müəssisələrin fəaliyyətinin sənaye spesifikliyini nəzərə almaq zərurəti ilə izah olunur.

### *Nəticə*

Təsərrüfat-istehsal fəaliyyəti ilə məşğul olan hər bir müəssisənin əsas məqsədi öz fəaliyyətinin fasiləsiz və səmərəli davamlılığına nail olmaq, yüksək mənfəət əldə etməkdir ki, bu da iqtisadi potensialının mövcudluğu və onun optimal artması ilə təmin edilə bilər. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, bugünkü iqtisadi şəraitdə hər bir müəssisənin səmərəli fəaliyyət göstərməsi üçün sadəcə əhəmiyyətli iqtisadi potensiala sahib olmaq kifayət deyil. Müəssisə bazar yönümlü olmalı, tələbdəki dəyişikliklərə çevik və sürətli cavab verməli və bazar tələblərinə uyğun olaraq iqtisadi potensialından səmərəli istifadə etməyi, qiymətləndirməyi, idarə etməyi, proqnozlaşdırmağı və qurmağı bacarmalıdır.Yalnız iqtisadi potensialın və ehtiyatların istifadəsinin obyektiv qiymətləndirilməsi müəssisənin səmərəli fəaliyyətinə imkan yarada bilər. Ona görə də, iqtisadi potensialının düzgün müəyyənləşdirilməsi, həyata keçirilməsi və inkişafı üçün ən məqsədəuyğun istiqamətlərin hazırlanması indiki şəraitdə hər bir müəssisənin qarşısında duran vacib vəzifə hesab edilməlidir.

### ƏDƏBİYYAT

1. Ганиева, Л. А. Формирование и экономическая оценка ресурсного потенциала промышленного предприятия : автореф. дис. … канд. экон. наук : 08. 00. 05 / Л.А.Ганиева; Казань. – 2003. – 18 с.
2. Дорошенко, Ю.А. Теоретические и методические основы моделирования экономического потенциала / Ю. А. Дорошенко, С. М. Бухонова // Российское предпринимательство. – 2005. – № 7 (67). – С. 50–53.

3. Кобец, Е.А. Планирование на предприятии : учеб. пособие /Е.А. Кобец. – Таганрог : Изд-во ТРТУ, 2006.
4. Лапин, Е.В. Экономический потенциал предприятия: монография. – Сумы: ИТД «Университетская книга», 2006. – 310 с.
5. Романов А.П., Серебренников Г.Г., Безуглая В.М., Кириллина О.В., Чарыкова М.К.. Управление экономическим потенциалом организации: учебное пособие. Тамбов : Изд-во ФГБОУ ВПО «ТГТУ», 2012. – 88 с.

***Тейюб Гани оглы Алиев***
***доцент АГУНП,***
***Нармина Хамид кызы Аббасова***
***доцент АГУНП***

**Экономический потенциал и факторы, влияющие на него**

***Резюме***

**Цель исследования-** определение содержания, структуры и факторов, влияющих на экономический потенциал предприятия.

**Методология исследования** - системный подход, методы сравнительного анализа.

**Результаты исследования** - предлогаются соответствующие рекомендации по объективной оценке экономического потенциала предприятия, его структуры, и по улучшению использования экономического потенциала предприятия.

**Практическая значимость исследования** - результаты исследования и предложенные рекомендации могут быть использованы для объективной оценки экономического потенциала предприятия, разработке мероприятий по эффективному использованию экономического потенциала.

**Оргинальность и научная новизна исследования** - обоснована необходимость проведения процесса планирования экономического потенциала предприятия поэтапно, дано новое определение, четко определяющее содержание понятия «экономический потенциал предприятия».

***Ключевые слова: предприятие, экономический потенциал, подходы, структура, факторы.***

***Teyyub Gani Aliyev***
***ass. prof. ASOIU***
***Narmina Hamid Abbasova***
***ass. prof. ASOIU***

**Economic potential and factors affecting it**

***Summary***

**The purpose of the study-** is to determine the content, structure and factors affecting the economic potential of the enterprise.

**Research methodology** - a systematic approach, methods of comparative analysis.

**Results of the research** - appropriate recommendations are proposed for an objective assessment of the economic potential of the enterprise, its structure, and for improving the use of the economic potential of the enterprise.

**The practical significance of the study** - the results of the study and the proposed recommendations can be used for an objective assessment of the economic potential of an enterprise, the development of measures for the effective use of economic potential.

**The originality and scientific novelty of the research** - the necessity of carrying out the process of planning the economic potential of an enterprise in stages has been substantiated, a new definition has been given that clearly defines the content of the concept of "economic potential of an enterprise".

***Key words: enterprise, economic potential, approaches, structure, factors.***